# Cahana sığmayan dahi



Ölkəmizin digər regionlarında olduğu kimi, Kürdəmir Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonların mədəniyyət müəssisələrində də mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Kürdəmirdə müxtəlif tədbirlər təşkil olunub.






Kürdəmir rayon Mədəniyyət Mərkəzində "Nəsimi ili" çərçivəsində "Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz..." adlı qəzəl müsabiqəsi keçirilib. Müsabiqə Kürdəmir Regional Mədəniyyət İdarəsi, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı və Kürdəmir Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib. Tədbirdə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı çıxış edərək Nəsiminin tərəqqipərvər, ictimai-fəlsəfi ideallarla zəngin irsindən, onun yaradıcılığının Azərbaycan ədəbiyyatı tarixində yeni mərhələ təşkil etməsindən, eləcə də türkdilli xalqların ədəbiyyatına təsirindən danışıb. Müsabiqədə qiraətçi şagirdlərin çıxışları dinlənilib.





Rayon Mədəniyyət Mərkəzində Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı ilə birgə keçirilən "Nəsimi sözünün qüdrəti" adlı elmi-praktik konfransda da böyük söz ustadının yaradıcılıq məziyyətlərindən söz açılıb.

Tədbirdə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəylinin "Nəsiminin farsca "Divan"ının özəllikləri", AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Atif İslamzadənin "Nəsimi yaradıcılığında inanclar sistemi və şairin ədəbi təsir dairəsi" mövzusunda məruzələri dinlənilib. Sonra qəzəl qiraəti müsabiqəsinin qalibləri Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin və Kürdəmir Regional Mədəniyyət İdarəsi və rayon Təhsil Şöbəsinin fəxri fərmanları ilə təltif edilib.

Kürdəmir Tarix-Diyarşünaslıq Muzeyində "Nəsimi ili" ilə bağlı sərgi açılıb. Muzeyə gələn şagirdlərə sərgi ilə bağlı məlumat verilib, nümayiş olunan kitablardan müxtəlif şeirlər oxunub. Muzeyin elmi işçiləri şagirdlərə Nəsimi yaradıcılığı haqqında məlumat veriblər. Bildirilib ki, Nəsimi humanist, eyni zamanda insanı ilahiləşdirən şairdir, həm də öz dövrünün ədalətsizliklərinə, Orta əsrlər cahilliyinin bütün təzahürlərinə qarşı cəsarətlə mübarizə aparıb. Şair inanırdı ki, azadfikirli, kamil və ləyaqətli insan hər cür məhrumiyyətə, fanatizmə və mövhumata qalib gələcək. Bütün bunlarla yanaşı, məhəbbət və gözəlliyi vəsf edən şeirlər də şairin yaradıcılığını maraqlı edir.

***

Regional idarənin tabeliyindəki Xocavənd rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Xocavənd kənd kitabxana filialı "Nəsimi ili" ilə bağlı tədbirlər təşkil edib. Kitabxana filialının müdiri Zümrüd İbrahimova Nəsiminin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Tədbirlərdə şairin kitablarından ibarət sərgilər hazırlanıb.

Xocavənd rayon MKS-nin Mərkəzi Kitabxanasında və Kuropatkin kənd kitabxana filialında Nəsiminin yubileyinə həsr edilmiş sərgi və söhbətlər təşkil edilib. Tədbirlərdə vurğulanıb ki, Nəsiminin yaradıcılığı Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından da müstəsna əhəmiyyətə malikdir. Xocavənd rayon Mədəniyyət evində keçirilən "Nəsimi yaradıcılığı" mövzulu tədbirdə şairin ideyalar aləmindən söz açılıb.

***

Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Nəsimi dünyası" adlı ədəbi-bədii gecə təşkil edilib. Mərkəzin direktoru Yeganə Məmmədova bildirib ki, Nəsiminin yaradıcılığı Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Bu yaradıcılıq uzun illərdən bəri elmi fikrin diqqət mərkəzindədir. Yarım əsr öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Nəsiminin 600 illik yubileyi keçirilib. Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. 1973-cü ildə çəkilən "Nəsimi" bədii filmi Azərbaycan kino sənətinin incilərindəndir.

Təbiət və humanitar fənlər təmayüllü liseyin direktoru






Mehman Kərimov çıxış edərək Nəsiminin Azərbaycan ədəbiyyatına böyük töhfələrindən danışıb.

Sonra tədbir bədii hissə ilə davam edib. Məktəblilərin ifasında Nəsiminin qəzəllərindən ibarət "Cahan mənəm" adlı ədəbi-bədii kompozisiya təqdim edilib. "Nəsimi" bədii filmindən fraqment nümayiş olunub.

Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbi Gənclər mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirib.



***

Füzuli Dövlət Dram Teatrında Nəsiminin 650 illik yubileyinə həsr olunan tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Gülbahar Eyvazova çıxış edərək Nəsiminin yaradıcılığı haqqında danışıb. Qeyd edib ki, Prezident İlham Əliyevin böyük şairin yubileyi haqqında, eləcə də 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında sərəncamları ədəbiyyatımıza, mədəniyyətə olan yüksək diqqətin nümunəsidir.

Əhmədbəyli kənd tam orta məktəbinin müəllimi Cəmilə Qənbərova şairin zəngin yaradıcılığından danışıb. Məktəblilər Nəsiminin qəzəllərini söyləyiblər. Füzuli Dövlət Dram Teatrı aktyorlarının iştirakı ilə göstərilən ədəbi-bədii kompozisiya və "Nəsimi" filmindən səhnələr maraqla qarşılanıb.

***

İmişli rayon Mədəniyyət Mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib. Layihə YAP rayon təşkilatı və rayon Təhsil Şöbəsi ilə birgə həyata keçirilib. Müsabiqədə rayonun ümumtəhsil məktəblərindən 30-dan çox şagird iştirak edib, qaliblər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

İmişli rayon Mərkəzi Kitabxanasınnda isə "Nəsimi ili – Nəsimi dili" adı altında gənclər arasında intellektual oyunların final mərhələsi təşkil edilib.



***

Mədəniyyət Nazirliyi və regional idarələrinin iştirakı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı çərçivəsində Kürdəmir şəhərində "Nəsimi ili" ilə bağlı şairin əsərlərindən və onun haqqında kitablardan ibarət sərgi nümayiş olunub. Mərasimdə rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov və Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Elman Məmmədov nümayəndə heyətlərini salamlayaraq festivalın bu bölgədə keçirilməsindən məmnunluqlarını bildiriblər. Milli geyimli qızlar qonaqları şərbət və xonçalarla qarşılayıblar. Festivalın bədii hissəsində regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 30-31.